

# Şəmkirdə şəhid Zaur Nəbiyevin xatirəsi əbədiləşdirilib

***Vətən müharibəsində qəhrəmancasına şəhid olan Zaur Nəbiyevin xatirəsinə abidə kompleksi ucaldılıb.***

Şəmkirdə bu münasibətlə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək abidənin inşasında əməyi keçən hər kəsə öz təşəkkürünü bildirmiş, 44 günlük Vətən müharibəsində Azərbaycanın qətiyyətli mövqeyindən, xalqımızın məğrurluğundan, yenilməzliyindən, torpağa bağlılığı və Vətən sevgisindən danışmışdır.

İcra hakimiyyətinin başçısı 44 günlük Vətən müharibəsində şanlı qələbə qazanan Azərbaycan Ordusunun şəhidlərin qanını yerdə qoymadığını, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini və qazanılan böyük qələbənin tarixi əhəmiyyətini xüsusi qeyd etmişdir.

Tədbirdə çıxış edənlər Azərbaycan Ordusunun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan, xalqla ordunun birliyindən söz açıblar. Qeyd edilib ki, şanlı zəfər tarixini yazan Vətən oğulları xalqın qəlbində hər zaman yaşayacaqlar.

Açılış mərasimində məktəblilərin ifasında Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilmişdir.

Şəhid ailəsi üzvləri və qazilər çıxışlarında onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 29 oktyabr.- S.9.